**«Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında gömrük orqanlarının qarşılıqlı inzibati yardım haqqında razılaşma Memorandumu» barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

1. 1997-ci il iyulun 7-də London şəhərində imzalanmış «Azərbaycan Respublikası Hökuməti və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Hökuməti arasında gömrük orqanlarının qarşılıqlı inzibati yardım haqqında razılaşma Memorandumu» **təsdiq edilsin.**

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsi ilə əlaqədar lazımi tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili proseduraların yerinə yetirilməsi haqqında Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökumətini xəbərdar etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

**Bakı şəhəri, 2 dekabr 1997-ci il**
**№ 702**